# İ. Şıxlının "Dəli Kür" romanında ənənə və novatorluq



İ.Şıxlı ədəbiyyat tariximizdə yeni bir səhifə açan sənətkarlarımızdandır. Hələ sağlığında öz layiqli qiymətini almış bu böyük nüfuz sahibi özünə tələbkarlıqla yanaşan, üzərinə düşən məsuliyyətin ağırlığını bütün varlığı ilə dərk edən, əsərlərinin bədii cəhətdən mükəmməl və dolğun olmasına önəm verən istedadlı yazıçılarımızdan biri idi. Onun bir nasir kimi qələmə aldığı mövzular hər şeydən öncə öz bədiiliyi, rəngarəngliyi, aktuallığı, obrazların mürəkkəbliyi, özünəməxsus deyim tərzi ilə yaddaqalandır. Ötən əsrin ikinci yarısında ədəbiyyata gələn bu nadir istedad sahibi öz orijinal yazı tərzi, fərdi üslubu ilə təxəyülünün gücünə arxalanaraq insan xarakterlərini, onların psixologiyasını, mənəvi aləmini yenidən bədii idraka, obrazlı təfəkkürə çevirməyi bacardı.

İstər hekayə və povestlərində, istərsə də romanlarında o həmişə müasir idi. Bu müasirlik hər şeydən öncə onun qələmə aldığı mövzuların aktuallığı və həyatiliyi ilə bağlı idi. Çünki, yazıçının təsvir etdiyi hadisələr öz milli xüsusiyyətləri ilə seçilirdi. Oxucu əsəri oxuduqca özünü bir anlığa təbiətin füsunkar gözəlliyi qoynunda hiss edirdi. Çünki yazıçı insanı təbiətin bir parçası kimi təsvir etmək bacarığına malik idi.

Təxminən on ilə yaxın gərgin yaradıcılıq məhsulu olan "Dəli Kür" (1968) romanı işıq üzü gördü. Bu əsər yazıçının öz oxucularına əvəzsiz töhvəsi idi. Bitkin süjet xəttinə malik və gərgin dramatik konfliktlərlə müşahidə olunan bu əsərdə yazıçı XIX əsrin sonlarına yaxın Azərbaycan kəndlərində baş verən ictimai və tarixi hadisələri önə çəkməklə yadda qalan insan obrazları və xarakterlər yarada bilmişdir.

Yazıçı XIX əsrin feodal-patriarxal kəndində hökm sürən özbaşınalığı, mülkədar-kəndli münasibətlərini, ictimai ədalətsizliyi, qadın hüquqsuzluğunu, ruhanilərin riyakarlığını, köhnə sxolastik təhsil sisteminin yararsız vəziyyətdə olmasını, çarizmin ucqarlarda yürütdüyü xalqa zidd siyasətini özünəməxsus bir şəkildə canlandıra bilmişdir.

Müəllif təkcə təbiət təsvirlərində yox, insan xarakterlərinin açılmasında da öz sənətkarlıq məharətini nümayiş etdirir, onların fərdi keyfiyyət və davranışlarını təbii boyalarla açıb göstərir. O, bir tərəfdən təsvir etdiyi mühitin ab-havasını, insanların yaşayış tərzini onların təbiətlə vəhdətdə bədii təsvirini sərgiləyirsə, digər tərəfdən də həmin mühitin ictimai norma baxımından bir sıra xüsusiyyətlərini özündə cəmləşdirərək mərkəzi obrazın - Cahandar ağanın sosial fonda tipik surətini yaratmış olur. Yazıçının "mən"i, dünyagörüşü də bu obrazın dili ilə verilir. Bu obraz öz-özlüyündə ətrafda baş verən hadisələrin, insan fərdlərinin və müxtəlif yaşayış tərzinin dərkidir, o, bütün ruhu və qəlbi ilə əlçatmazlığın zirvəsində olmağa can atır. Onun istək və arzuları, duyğu və düşüncələri, məhəbbət və nifrəti, dünyaya baxışı məhz bu ucalıqdan boylanan mühitdədir.

Azərbaycan xalqının tarixi keçmişindən, onun başqa xalqlarla birlikdə zülm və zorakılığa qarşı azadlıq mübarizəsindən az yazılmamışdır. Düzdür, İ.Şıxlı da məhz bu ənənəyə müsbət münasibət bildirməklə əsərlərində müəyyən mənada öz sələflərindən bu və ya digər dərəcədə bəhrələnmiş, özündən sonra gələn sənətkarlar isə bilavasitə onun ənənələrini layiqincə davam etdirmişlər. Bununla belə, yazıçı romanın əvvəlindən sonuna kimi öz orijinallığını qoruyub saxlaya bilmişdir. Bütün bunları nəzərə alaraq, "Dəli Kür" romanının ruhən bir-birinə yaxınlığı ilə seçilən digər yazıçılarımızın əsərləri ilə oxşar və fərqli cəhətlərini həm paralel şəkildə müqayisə edəcək, həm də onların qarşılıqlı təhlilini verməyə çalışacağıq. Biz ilk öncə İ.Şıxlının "Dəli Kür" romanı ilə M.Şoloxovun "Sakit Don" romanı arasındakı oxşarlığı nəzərdən keçirəcəyik.

"Dəli Kür" romanında Göytəpə kəndinin ürək açan gözəllikləri, yaşıl vadiləri, çəmənlikləri,qıjıltı ilə axıb gedən Kür çayı, onun sol sahilində yerləşən qalın meşəlikləri, oradakı vəhşi yaşam tərzi o qədər canlı və reyal təsvir edilmişdir ki, oxucu bu gözəllik önündə heyranlığını gizlədə bilmir: "Axşamdan kəndin üstünə çökən duman çəkilmiş, səhərə yaxın, yağış çiləmişdi. Torpaq yolların və cığırların tozu xal-xal olmuşdu, çəmənliyin şehi parlayırdı... Hündür boz təpələri yarıb uçuruma çevirən Kür, meşənin yaxası boyu uzanıb gedirdi. Tez-tez köpüklənib daşan, yaz aylarında yatağına sığmayıb gah sol sahildəki meşəyə soxulan, gah da bəri üzdəki hündür yarğanları, biçənəkləri, ulğunları yuyub aparan Kür bu il daha coşqun idi..."

Biz təbiətin epik planda belə təsvirinə M.Şoloxovun "Sakit Don" romanında da rast gəlirik: "Melexovların evi Xutorun lap kənarındadır. Onların mal-qara pəyəsinin qapısı şimalda, Don çayına baxır. Burada balıqqulaqları sədəf kimi ətrafa səpələnmiş, dalğaların yuyub gözəlləşdirdiyi xırda çay daşları boz, əyri-üyrü haşiyə kimi uzanır, sonra küləyin ləpələndirdiyi Donun işıldayan göy sularına qarışıb gedirdi... Dan yeri ağarır, bozumtul səmada tək-tək ulduzlar seçilirdi. Buludlardan aşağıda külək əsirdi. Donun üstü ilə süzən duman atlı kimi çapır, təbaşirli dağların döşünə yayılır, oradan ilan kimi sürünə-sürünə sıldırım qayaların arasına girirdi. Çayın sol sahilindəki düzlər, qumsallıqlar, qobular, keçilməz qalın qamışlıqlar, şeh düşmüş meşə soyuq şəfəqlə parıldayırdı. Hələ boylanmamış günəş üfuqi qırmızı şəfəqə bürümüşdü..."

Hər iki əsərdə müəllif təbiətin ürək açan gözəllilərini bədii boyalarla təsvir etməklə bir-birindən gözəl epitetlər, təşbehlər, metaforalar yaratmaqla bizi heyran edir. Oxucu gah baharın xoşbəxtliyə aparan gizli pıçıltısından, gah yaz vaxtı yatağına sığmayan Kürün boz-bulanıq qıjıltısından, gah da Donun "üstü ilə süzən dumanın atlı kimi çapıb" getməsindən estetik zövq alır.

Biz eyni zamanda "Dəli Kür" romanı ilə "Sakit Don" romanı arasındakı oxşar və fərqli cəhətlərə də aydınlığ gətirməyə çalışacağıq.

Hər iki romanda təsvir olunan hadisələr coğrafi baxımdan ayrı-ayrı məkanda baş versə də, yazıçının qarşıya qoyduğu problemlər, onları narahat edən və düşündürən məsələlər müxtəlif zaman kəsiyində öz bədii həllini tapmış olur. Romana verilən adlar isə obrazların əhval-ruhiyyəsi ilə yaxından səsləşir; onların duyğu və düşüncələri, arzu və istəklərilə bir vəhdət təşkil edir.

Cahandar ağa nə qədər igid və cəsur olsa da, o eyni zamanda bir o qədər zalım, qəddar, əzazil, təkəbbürlü bir obrazdır. Onunla müqayisədə Kür çayı da bir o qədər qəzəbli, yaz vaxtı "öz məcrasına sığmayan", "aşıb-daşan", "boz-bulanıq..." bir çaydır. Yazıçı ayrı-ayrılıqda yaratdığı bu lövhələrdə qəhrəmanın "dəli-dolu" olmasını, güc və qüvvəsinin təbiətlə birlikdə təsvirini verir.

Bundan fərqli olaraq "Sakit Don" romanında hadisələr bir qədər epik planda verilsə də, Melexovlar ailəsi öz ağıl və düşüncələri ilə Cahandar ağadan fərqli olaraq təmkinli, sakit görünür. Qriqori istər ailədə, istər təsərrüfat işlərində, istərsə də atasıyla balıq ovuna gedəndə özünü sakit aparır, hərəkətlərinə nəzarət etməyi bacarır. Sanki o öz təmkinini, vüqarını, saflığını, "duruluğunu" sakit axan Dondan götürmüşdür. Doğrudur, əsərin sonrakı hissələrində - vətəndaş müharibəsi dövründə qəhrəmanın düşdüyü vəziyyət bir qədər fərqli şəkildə təsvir olunsa da, biz Cahandar ağada gördüyümüz qəddarlığı Qriqoridə görmürük. "Dəli Kür"-də Cahandar ağa kazaklar tərəfindən öldürülsə də, "Sakit Don"da Qriqori öz evinə sağ qayıdır.

"Dəli Kür"də Mələk xanım Cahandar ağa tərəfindən qaçırıldıqdan sonra Allahyar xəcalətindən camaat arasına çıxa bilmir. O, hansı yolla olursa-olsun Cahandar ağadan öz qisasını almaq üçün fürsət axtarır. Belə bir çətin vaxtda kənd ağsaqqallarından biri onu tikanlı sözlərlə sancaraq deyir: "Ay bala, namusu itə atıblar, it yeməyib, bəs sənin qeyrətin hanı? Niyə gedib arvadını axtarmırsan?"

M.Şoloxov "Sakit Don" romanında isə Mitka kübar ailədən olan Lizanı balıq tutmaq adıyla aldadaraq qayığa mindirib Don çayının o biri sahilinə aparır. Onlar geri dönəndə bütün kənd bu hadisədən xəbər tutur. Ara sakitləşəndən sonra Mitka, Lizagilə gələrək onun atasına deyir: "Gəldim ki, ... bəlkə Lizanı mənə verəsiniz." Bu sözləri eşidən ata deyir:"İtil burdan! İt oğlu, it!... Al-çaq!..." Mitka təmkinini pozmadan deyir: "İxtiyar sahibisiniz, Sergey Platonoviç, özünüz bilərsiniz... Belə bir qız indi kimə lazımdır? Mən dedim bədnam olmasın. Yoxsa, dişlənmiş tikə kimə lazımdır? Dişlənmiş tikəni it də yemir?..."

Yaxud, "Sakit Don"da Aksinya ərindən gizli Qriqori Melexovla görüşür. Bundan xəbər tutan əri öz arvadını möhkəm cəzalandırır. Ancaq Aksinya tutduğu əməldən əl çəkmir. İş o yerə gəlib çatır ki, o öz ərini atıb, Qriqori ilə qeyri-qanuni yaşayır. Qeyd etmək lazımdır ki, Aksinya həm gözəldir, cazibədardır, həm də cəsarətlidir, məğrurdur. O, hər cür çətinliyə qatlaşan fədakar bir qadındır. Buna görə də o öz xoşbəxtliyi və məhəbbəti uğrunda sona qədər mübarizə aparır. Nəhayət, əsərin sonunda öz sevgisinin qurbanı olur.

Amma Aksinyadan fərqli olaraq Mələk xanım passivdir, onun əlində heç bir ixtiyar yoxdur. Öz hüquqlarını nəinki tələb etmir, əksinə düşdüyü şəraitlə barışır. O, Azərbaycan qadınlarına xas olan köhnə feodal-patrialxal adət-ənənələrə boyun əyərək dörd divar arasında ömür-gün "çürüdür". Ərindən icazəsiz bir addım belə kənara ata bilmir. Bununla belə hər iki əsərdə ailə-məişət problemi geniş şəkildə öz bədii əksini tapmışdır.

Bu romanlardakı ideya-estetik meyilləri dəyərləndirən tənqitçi alim T.Salamoğlu T.Hüseynoğlunun fikirlərini əsas tutaraq yazır: "Sakit Don" romanında olduğu kimi, "Dəli Kür"də əks etdirilən məsələlər epoxal səciyyə daşıyır. Bu əsərdə xalq taleyinin bədii inikası və xalq xarakterinin canlandırılmasında millilik sinfiliyin əlaqə və tənasübü məsələsinə bədii-estetik baxışın təzəliyi diqqəti cəlb edir."

İndi isə biz İ.Şıxlının "Dəli Kür" romanında Cahandar ağa obrazı ilə L.Tolstoyun "Anna Karenina" romanında təsvir olunmuş gənc mülkədar Levin obrazlarının birlikdə müqayisəli təhlilini verməyə çalışacağıq. Lakin bu obrazların təhlilinə keçməzdən əvvəl Cahandar ağa obrazı haqqında bir qədər müfəssəl məlumat verməyi lazımı bildik.

"Dəli Kür" romanında təsvir olunan Cahandar ağa özündən razı, mürəkkəb xarakterə malik bitkin bir obrazdır. O, feodal-patriarxal mühitində yaşayıb, fəaliyyət göstərən harın bir mülkədardır. Özünü kənddə hamıdan üstün tutan, heç kimin qabağında baş əyməyən təkəbbürlü bir bəydir. Kənddə çoxlu pay torpağlarına, çəmənliklərə, meşəliyə, qoruq sahəsinə malik bir ağadır. O, mənsub olduğu istismarçı sinifdən, qəddarlıq, şöhrətpərəstlik, mənəm-mənəmlik kimi bir çox sifətləri mənimsəyə bilmişdir. Oğlu Şamxalın yoxsul Qocanın qızı ilə evləndiyini eşidəndə hirsindən cilov gəmirir, gözlərinə qan sızır: "Üç gün, üç gecə ağzı üstdə yatır", hirsindən ağlayır, "iri cod barmaqları ilə gəbənin ilgəklərini didib tökür", Qoca gəmiçi ilə qohumluğunu şəninə sığışdırmır. Mələk xanım bu işə qarışmasaydı, bəlkə də əli oğul qanına batmış olardı.

Cahandar ağa samanlığın üstündə oturub Əşrəflə söhbət edərkən oğlu ona deyir: "Gərək bizə kömək edəsən". "Bilirsən, ata, padşahın əmri var, kəndlərin çoxunda məktəb açılacaq, kəndçi uşaqları oxuyacaq." "Kənddə səndən varlı adam varmı?" "Olmaz öz torpağlarımızdan biraz kasıblara verək...?" Bu sözlər Cahandar ağanı özündən çıxarır. O, fikirləşir ki, "Uşağın başı xarab olub nədir...? Necə yəni kasıblara torpaq payla, məktəb tikdir, bunlar mənim nəyimə lazımdır?"

Bəs Levin? Axı o da kənddə mülkədardır, onun da geniş torpaq sahələri var. Ancaq Cahandar ağadan fərqli olaraq öz təsərrüfatını bacarıqla idarə edir. Hətta ot çalımı zamanı mujiklərə qoşulub onlarla birlikdə dəryazla ot çalır, onları ruhlandırır. Ancaq bunların hamsı gözdən pərdə asmaqdan başqa bir şey deyildir. Qardaşı Nikolay şəhərdən kəndə gələrkən kəndlilərin acınacaqlı vəziyyətdə yaşadığının şahidi olur. O, qardaşına məsləhət görür ki, kənddə tibb məntəqəsi, məktəb, aptek açsın. Levin isə bütün bunların hamısını cəfəngiyyat adlandırıb: "Məktəb mənim nəyimə lazımdır?" - deyir. Qardaşı Nikolayın "təhsilin xalq üçün xeyirli olduğunu qəbul edirsən, ya yox?" - sualına Levin belə cavab verir: "Mən hələ bunun yaxşı bir iş olduğunu təsdiq etmirəm."

O, belə düşünürdü ki, kəndlilər savadlansalar, ağalara amansız divan tutar, onların var-yoxunu talan edərlər. Pay torpaqlarına gəldikdə isə bu torpaqların kəndlilərə verilməsinin qəti əleyhinədir. Ancaq o, üzdə özünü "mujiklərin" himayədarı kimi göstərir. Levinin belə mövqe tutmasını qardaşı Nikolay haqlı olaraq tənqid edir: "Sən bir şey qurmaq istəmirsən, sən sadəcə özünü bütün həyatın boyu olduğu kimi orijinal göstərmək istəyirsən. Özünü elə göstərirsən ki, guya mujikləri istismar etmirsən..."

Maraqlı burasıdır ki, feodal-patriarxal adətlərinə öyrəşmiş kəndə heç kim maarif işığı gətirmək istəmir. Hətta Levinin dostu Svijayiski ona məsləhət görüb deyəndə ki, "Xalqı maarifləndirmək üçün üç şey lazımdır: məktəb, məktəb və yenə də məktəb!..." Buna cavab olaraq Levin deyir: "Rus mujiki donuz kimi bir şeydir. O ancaq murdar şeyləri sevir..."

*(Davamı 3-cü səhifədə)*

*(Əvvəli 2-ci səhifədə)*

Göründüyü kimi, hər iki yazıçı heç bir hüququ olmayan yoxsul kəndliləri müdafiə edirdi. Ölkənin bütün sərvətləri, torpaqları, meşələri, otlaq sahələri onlara məxsusdur. Kəndlilər üçün qanun ancaq mülkədarların şəxsi idarəsi idi. Mülkədarlar feodal-natriarxal mühitində yaşayan kəndlilərlə istədikləri kimi rəftar edirdilər. İ.Şıxlıdan fərqli olaraq Tolstoyun orijinallığı ondan ibarət idi ki, o köləliyi ümumbəşəri səviyyəyə qaldıra bilmişdir.

"Dəli Kür"ün ən böyük nailiyyətlərindən biri Azərbaycan xalq maarifinin inkişafında, müəllim kadrlarının yetişməsində Qori seminariyasının tarixi rolunu, misilsiz xidmətlərini önə çəkməsidir. Azərbaycanın bir çox ictimai xadimləri, qabaqcıl maarifçiləri Qori müəllimlər seminariyasının yetirmələri arasından çıxmışdır. Əlbəttə, bu işdə Aleksandr Osipoviç Çernyayevskinin xidmətləri danılmazdır. İ. Şıxlı ilk dəfə olaraq bu fədakar maarifçinin parlaq obrazını ədəbiyyatımıza gətirməklə onun əvəzsiz xidmətlərindən söhbət açır. O rus Əhmədin şagirdlərinin dəftərlərini görəndə ürəkdən sevinir. Heç bir xəbərdarlığa baxmayaraq, Molla Sadığın yanına gedir. İlk öncə çağırılmamış qonaqları fanatik kütlə qarşılayır. Lakin Cahandar ağanın: "Qonağa əl qaldırmazlar" - deyərək işə qarışması coşmuş ehtirasları sakitləşdirir. Zəmanənin getikcə dəyişdiyini görən Cahandar ağa özünə bir söykənəcək, dayaq axtarmaq məqsədilə oğlu Əşrəfin Qori seminariyasında oxumağa getməsinə razılıq verir: "O fikirləşir ki, oxumağı yaxşıdır. Qoy lap böyüsün divan-dərə ilə M. İbrahimovun "Pərvanə" romanında bu vəzifəni Volkov yerinə yetirir.

Çarizmə, mütləqiyyət üsul-idarəsinə sədaqətlə xidmət edən Petrov Azərbaycanlı tələbələrə ikrah hissi ilə baxır. O əlində tutduğu əsa ilə gah bu, gah da başqa tələbənin sinəsinə vuraraq "kəmərini düzəlt", "yaxanı düymələ" - deyə qışqırır. Eyni zamanda müsəlman tələbələrini "vəhşilər", "pinti tatar balası" kimi təhqiramiz sözlərlə alçaldaraq onların mənliyinə , heysiyyətinə toxunur. Tələbələri cərgəyə düzəndə cır səslə qışdıraraq deyir: "Ey, tatarlar, parçalanın,




Biz buna oxşar eyni fikirlərə "Dəli Kür"də də rast gəlirik. Əşrəf Radişşevin "Peterbruqdan Moskvaya səyahət" romanını oxuyarkən yuxuya gedir. Gecə Aleksey Osipoviç onun yatağının yanında bu kitabı tapıb özü ilə aparır. Və onu yenidən öz həmkarı Kipianiyə qaytarır...

Biz Cahandar ağa obrazı ilə müqayisə oluna biləcək başqa bir obraz haqqında öz fikirlərimizi oxucularla bölüşmək istəyirdik. F.Eyvazlının "Qaçaq Kərəm" romanında Kərəm öz əbədi düşmənini aradan götürmək üçün gecə vaxtı onun evinə gəlir. O, düşmənini yataqda arvadı ilə bir yastığa baş qoyub yatdığını görəndə əl saxlayır. Namərdlik eləyib düşmənini yatdığı yerdə öldürmək istəmir. O tüfəngin darağından iki patron çıxarıb onların yatağının üstünə atıb oradan uzaqlaşır. Onu bu vəziyyətdə öldürməyi qüruruna sığışdırmır...

Cahandar ağa da Allahyarla haqq-hesabı "çürütməyə" gedəndə darvazanın önündə mərd-mərdanə dayanıb düşmənini çölə çağırır. Səsə əvvəlcə nökərlər, sonra isə Allahyar özü çıxır. Cahandar ağa düşmənini silahsız görüb tüfəngini aşağı salır: "Kişi kişinin qabağına belə çıxmaz. Get atını yəhərlə, tüfəngini götür" - deyir. Onun getmədiyini görən Cahandar ağa tüfəngin xəzinəsini boşaldıb güllələri onun ayaqları altına ataraq deyir: "Qorxma, arxandan vurmaram". Cahandar ağa bu döyüşdə yaralansa da, ancaq öz rəqibinə qalib gələrək onu öldürür.

Tənqitçi alim T.Salamoğlu yazır: "İ.Əfəndiyevin "Geriyə baxma, qoca" (1980), F.Eyvazlının "Qaçaq Kərəm" , M.Süleymanlının "Köç"(1984) romanlarında patriarxal adət-ənənələrinin tarixi xəbər tutan Cahandar ağa molla Sadığın evinə gəlib təpiyilə qapını açaraq silahla müridləri hədələyir. Molla Sadığ isə qaranlıqda gizli qapıdan aradan çıxaraq qaçır. Cahandar ağa çirağın zəif işığında küncə sığınmış bacısını görəndə onu qamçılayıb çölə çıxarır, qaranlıqda Qəmərin qabağına salıb aparır.

Şahnigar yaxşı bilirdi ki, belə bir iş tutduğu üçün qardaşı onu çətin ki, bağışlasın. O, tikan kollarına ilişərək irəliləyir. İrəlilədikcə xəyalları onu çəkib uzaqlara aparır: "Deyəsən, mənimki bura qədər imiş. Öldürməyə aparır. Yoxsa düzü-dünyanı niyə dolanır? Nə? Öldürmək? Axı niyə? Nə pis iş tutmuşam ki? Sənin əlin məni, bircə bacını öldürməyə qalxarmı, ay qardaş? Doğrudur, suçun var. Boynuma alıram, ancaq günahım o qədərdə böyük deyil. Vallah düz sözümdür, o, inandığımız haqqı yalan danışmıram... Anam öləndə məni sən saxladın. Onun iyini səndən alıram, ay qardaş... Sənə toy olanda hamıdan çox sevinən mən olmadımmı? Gəlin getməzdən əvvəl otağa girib üzümdən duvağı açdığın, "ay şeytan, sənsiz lap darıxacağam" - dediyin yadında deyilmi? Axı mən o günü sənin doluxsunub yaşaran gözlərini indi də unutmamışam... Axı, sən məni çox istəyirdin?!. Bəs indi nə olub ki, məni öldürmək fikrinə düşmüsən. İnanmıram. Mənə əl qaldırasan, ay qardaş!"

Cahandar ağa isə dərin düşüncələrə qərq olmuşdu. Beyni uğuldayırdı. Nə edəcəyini bilmirdi:"... Bundan sonra mən camaatın içinə necə çıxacağam? Başıma papaq qoyub necə gəzəcəyəm? Mərəkədə oturub necə söhbət edəcəyəm? Üzümə deməsələr də arxamca rixşənd edib, atayaxın olsun. Deyəsən, indiki zamanda bir yanını hökumətə söykəməsən iş keçməyəcək. Bəlkə elə Əşrəfin özünü pristavdan-zaddan qoydular. Onda həndəvərimə heç kim hərlənə bilməz."

Yazıçı Qori seminariyasının direktoru Semyonovu, Kipianini və Çernyayevskini bir müəllim kimi qəlbən sevir, onları müdafiə edir. Aleksandr Osinoviçin müsəlman tələbələri üçün yazdığı "Vətən dili" dərsliyini ürəkdən alqışlayır.

İ.Şıxlı novator bir yazıçı kimi ədəbiyyatımızın ən yaxşı ənənələrini davam etdirərək müxtəlif millətlərdən olan sadə adamların bir-biri ilə qırılmaz tellərlə bağlı olan əbədi dostluğunu da bədii boyalarla təsvir etmişdir.

Böyük sənətkarımız M.İbrahimov "Pərvanə" romanında bir daha yenidən bu mövzuya toxunaraq Qori seminariyasında təhsil alan müxtəlif millətlərin nümayəndələrindən olan tələbələrin bir araya gəlməsindən, vahid bir amal uğrunda mübarizə aparmasında ətrafı söhbət açır.

N.Nərimanov Qori seminariyasına oxumağa gedəndə nəinki Aleksandr Osipovicin, eyni zamanda seminariyada çalışan bütün tərəqqipərvər pedaqoqların ən sevimli tələbələrindən biri idi. İti zehnə, möhkəm yaddaşa malik olan bu istedadlı tələbə öz mehribanlığı, alicənablığı, xeyirxahlığı və səmimiliyilə bütün tələbələrin sevimlisinə çevrilir. O, öz təfəkkür tərzinə, düşüncəsinə görə də tələbə dostlardan fərqlənir. Onun yazdığı inşa yazı öz zəngin həyat materialları ilə insanı dərindən düşündürür: "Mən bilirəm ki, seminariya elm və maarif ocağıdır. İdrakın məşəlini bizim əlimizə verib deyir; "Gedin harda qaranlıq və cəhalət gördünüz, bu məşəlin nuru ilə məhv edin!" Bəli, bu azadlıq nurudur! Azadlıq olmayan yerdə maarif və mədəniyyət işığı ola bilməz!

İndi biz hər iki romanda təsvir olunmuş mənfi obrazlar haqqında müfəssəl söhbət açacağıq. Əgər "Dəli Kür"də Qori seminariyasında Petrov müəllim kimi deyil, xəfiyyə kimi fəaliyyət göstərirsə, sünnülər sağ tərəfə, şiələr isə sol tərəfə keçsin..."

Növbətçi müəllim kimi fəaliyyət göstərən Petrov dərs zamanı seminariyaya soxularaq Kipianini həbs etməyə gələn polislərə bələdçilik edərək onu ələ verir: "...Növbətçi müəllim ayaq saxladı. Gözü ilə Kipianinin dərs dediyi otaqı göstərdi." Polislər Kipianini sinifdən çıxarıb aparanda Əşrəf cəld zəngə tərəf qaçaraq onu var gücü ilə çalmağa başlayır. Bu zaman bütün tələbələr sinifdən çölə çıxaraq öz müəllimlərini dövrəyə alırlar: Birdən kim isə ucadan: "Biz sizi heç vaxt unutmayacağıq, əziz Kipiani müəllim"- deyə qışqırdı. Bu gürcü tələbə Luka idi...

Volkov da Petovdan geri qalmayan ikiüzlü, xəyanətkar, yaltaq, satqın, vicdanını çoxdan itirmiş bir tipdir. O, seminariyada tələbələrdən heç kimə güzəştə getmir. Azərbaycanlı tələbələri o da Petov kimi "tatar" adlandırmaqla onlara dərin kin bəsləyir: "Onları görəndə adamın ürəyi bulanır... Yaşayışlarına, xasiyyətlərinə də bələdəm. Bilirəm necə yonulmamış, necə kobud və nadan tayfadır! Həyatları da ki, heyvan həyatı!"...

Müəllif oxucunun qəlbində sonsuz qəzəb və kin, nifrət hissi oyadan bu obrazın iç üzünü, daxili aləmini, eybəcərliyini açaraq onun mənfur simasını bir daha gözlərimiz önündə canlandırmış olur.

Yazıçı əsərdə bir-birinə zidd xarakterləri səciyyələndirməklə oxucunu düşündürən müxtəlif üsullardan istifadə edir. Volkov seminariyanın müəllim və tələbələri arasında azadlıq fikirlərinin yayıldığını görəndə, öz qəzəb və nifrətini biruzə verir. Bunun əksinə olaraq Aleksey Osipoviç qəlbinin dərinliklərində qürur hissi keçirir, zəhmətinin hədər getmədiyinə sevinir. Volkov az qala bütün ölkəni "altıncı palataya" çevirən çar hökümətinin "sərt qaydalarını yumşaltdığını görəndə" buna inana bilmir. O, soyuq bir kinayə ilə deyir: "Radişşev Rusiyanın, taxt-tacın düşməni idi. Allahsızdır. Eləsini diri-diri odda yandırmaq azdır..."

planda təsviri ön plana keçir. Bu əsərlərdə bilavasitə patriarxal keçmiş təsvir obyekti kimi götürülür və onun milli yaddaşda bərpası əsas yazıçı məqsədinə çevrilir. Bu əsərlər ənənəyə novator münasibətlə fərqlənir, eyni zamanda,"Dəli Kür" və "Qarlı aşırım"ın ənənə yaratmaq gücünü bir daha təsdiqləyir."

Yazıçı hər hansı bədii əsəri qələmə alarkən ilk növbədə obrazların daxili aləmini açmaq və onların duyğu və düşüncələrini izləmək üçün təhkiyə üsulundan geniş istifadə edir. Bu təhkiyə bəzən müəllif tərəfindən şirin bir dillə nəqil olunursa, bəzən də hadisələrin axarından asılı olaraq kədər və qüssə notları üstündə köklənmiş olur. Bunu nəzərə alaraq İ.Şıxlının "Dəli Kür" romanında Cahandar ağa və Şahnigar obrazı ilə V.Hüqonun "Səfillər" romanında Jan Valjan və polis komissarı Javer obrazı arasında qəhrəmanların keçirtdiyi ən ağır psixologi gərginliyi və sarsıntıları, onların daxili həyəcan və iztirabları, bir-birindən fərqli hiss və düşüncələrini yaxından izləməklə biz bu obrazların ən kədərli və faciəli taleyinin bir daha yaxından şahidi olacağıq.

Yazıçının böyük məhəbbətlə sevərək yaratdığı Şahnigar obrazı qəlbi həyat eşqi ilə döyünən saf bir qadındır. Cahandar ağa bacısını ürəkdən sevir, həmişə onu müdafiə edir. Evə bir şey alıb gətirəndə onu yaddan çıxarmır. Amma bu qadının qəlbi sınıqdır. Öz həyat yoldaşını itirdikdən sonra tək-tənha yaşayır: "Ərim yox, uşaqlarım yox, elə Allahın bədbəxtiyəm. Bəlkə qəzəbə gəlmişəm. Günahım çoxdur. Onun üçün də rəhminə qurban olduğum mənə kəc baxır. Bəlkə gec deyil. Elə bu müridlərə qoşulsam kəramət sahibi məndən mərhəmətini əsirgəməz" - deyir. Cahandar ağa isə dönə-dönə tapşırmışdı: "Çalışın adınıza söz çıxmasın. Söz çıxdımı, daha özünüzdən küsün." Ancaq buna baxmayaraq, qardaşının kənddə olmadığını öyrənən Şahnigar o gecə gizli olaraq molla Sadığın evində təşkil olunmuş "meyxanaya" gəlir. Bundan mın goruna söyməyəcəklərmi? Kişilikdən dəm vurur, namusdan danışır, amma bacısından xəbəri yoxdur, müridlərin dınqırına süzür, - deməyəcəklərmi?: Kaş sən heç yaranmayaydın. İndi mən nə edim? Dərdimi kimə açım?.."

O, Şahnigarın üzünə baxa bilmir, arxadan vurmaq üçün əl-üzünü yudurdur. Bacısının baxışları onun qəlbinə od salır. Bu zaman güllə açılır. Şahnigarın kürəyinin ortası od tutub yanır... " Bacısı şehli otların arasında arxası üstə uzanmışdı. Cahandar ağa ilk dəfə bacsını görürmüş kimi diqqətlə süzdü. Ona elə gəlirdi ki, qarşısındakı Şahnigar yox, anasıdır. Qız ona nə qədər oxşayırmış... Cahandar ağa birdən-birə hələ də istisi soyumamış cəsədin üstünə sərilib hönkürdü..."

Müəllif Cahandar ağanın hərəkətlərini elə psixoloji dərinliklərlə təsvir etmişdir ki, oxucu onun dərin mənəvi sarsıntılar keçirdiyinin şahidi olur. Cahandar ağa bacısının cənazəsinə sarılıb ağladığı zaman onun qəlbində bir anlıq insani hisslər baş qaldırır. Tənqitçi - alim Yavuz Axundov yazır: "Bu epizodda surətə xas olan kəskin təzad özünü göstərir. Hətta bir anlığına Cahandar ağanın qəlbi sanki yumuşalır. Lakin bu bir qığılcım kimi tez də sönür."

"Səfillər" romanında isə biz Jan Valjanı barrikada döyüşlərində görürük. O, döyüşçülərlə bir sırada dayanıb. Bu zaman o, polis komissarı Javerlə qarşılaşır. Javer üsyançılar tərəfindən əsir götürülüb. Onu öldürmək lazımdır. Bu işi Yan Valjan öz öhdəsinə götürür. Lakin Jan Valjan onu öldürməyib azadlığa buraxır.

Barrikada döyüşlərində Marius ağır yaralanıb, Jan Valjan onu döyüş meydanından çıxardığı zaman axşam qaranlığında Javerlə rastlaşır. Javer onu tanıyır. "Sena sahilində heç gözləmədiyi halda Jan Valjana rast gələndə onun qəlbində, nəhayət, ovunu ələ keçirən bir canavar duyğusu oyanmışdı.

*(Davamı 5-ci səhifədə)*

*(Əvvəli 3-cü səhifədə)*

Javer iki yol ayrıcında qalmışdı: Jan Valjanı həbs etsin, ya sərbəst buraxsın? Sonsuz düşüncələr onun qəlbini didib parçalayır, nə qərar verəcəyini özü belə anlaya bilmir. O dərin bir uçurum qarşısında dayandığını hiss edir. Bir-birinə zidd fikirlərin amansız mübarizəsi onu düşünməyə məcbur edir. O, Jan Valjana azadlıq versin, yoxsa onu yenidən həbsxana divarlar arasına göndərsin?..."

O, get-gedə daha ağır düşüncələrə dalır. Bu düşüncələr bir an olsa belə, onu tərk etmirdi: "Mən amansızca təqib etdiyim bu katorqa dustağının pəncəsinə düşəndə, o, ancaq elə kin saxladığı üçün deyil, öz təhlükəsizliyi üçün də məndən qisas ala bilərdi, hətta lap qisas almalı idi. Bəs o mənə aman verməklə, məni öldürməməklə nə elədi? Öz vəzifəsini yerinə yetirdi? Yox. Daha böyük şeylər elədi!..."

Bunları düşündükcə Javerin beyni uğuldayır, "özünü alçaq bir adam hesab edirdi". Axı, o nə üçün hamıya yaxşılıq edən bir adamı həbs etməli idi? "Mərhəmətli cinayətkar, başqalarının dərdinə qalan katorqa dustağı, həlim, alicənab bir insan! Elə bir insan ki, dara düşənə kömək edir, pisliyə yaxşılıq edir, ona həsəd edənləri əfv edir, mərhəməti qisasdan üstün tutur, elə bir insan ki, düşmənini məhv etməkdənsə, özü məhv olmağa hazırdır, onu təhqir edənləri xilas edir, elə bir insan ki, xeyirxahlığının zirvəsində diz çökür, insanlıqdan çox mələyə oxşayır!..."

Bütün bunları düşünən Javer özünə nifrət edir, sanki onu məğənəyə salıb sıxırlar...

Bəs Jan Valjan? O hansı hissləri keçirirdi? Həyatının sona çatdığınımı düşünürdü? "Görəsən Kozetta indi haradadır? Mariasun taleyi necə olacaq? Heç olmasa onların toyunu görə bilsəydim?..." Bu bitib-tükənməyən sonsuz suallar onun qəlbini didib parçalayır, rahatlığını əlindən alırdı.

Jan Valjan Javerlə qarşılaşanda özünü dərin bir uçurumun qarşısında hiss etdi. O əlləri ilə başını tutaraq ağır düşüncələrə qərq olmuşdu. Dünyada hər şeyi unutmuş kimi bir müddət beləcə yerindəcə donub qaldı. Onun üzü və duruşu yalnız hədsiz bir mərhəmət ifadə edirdi. Bəzən elə təsirli xəyallar olur ki, onlarda ən ülvi həqiqətlər gizlənir... Jan Valjanın qarşısında isə qorxunc bir kabus dayanmışdı. Bu dəfə onun üçün katorqa yalnız katorqa deyildi. Bu katorqa əbədi olaraq Kozettadan məhrum olmaq, yəni qəbrə bənzər bir həyat sürmək demək idi. Çünki Jan Valjan xəyali dəhşətlərdən həqiqi dəhşətlərə düşmüşdü..."

Javer isə artıq dözə bilmir. Jan Valjanın göstərdiyi alicənablıq onu əzir. O daxilən vicdan əzabı çəkir. Qəlbinin dərinliyində özözüylə amansız mübarizə aparan bu qorxunc insan hər dəfə bu mübarizədən məğlub ayrılır. Artıq ümid yeri qalmır. O heç nəyi düşünmədən qətiyyətlə Senaya doğru addımlayır: "...Ətrafa sanki ölüm sükutu çökmüşdü. Buludlar ayın qabağın kəsmişdi. Artıq gözgözü görmürdü: Bütün bunlara dözə bilməyən Javer əvvəlcə sürahiyə dirsəklənib Senanın iti axan yerində gah açılıb, gah da yığılan burulğana baxdı. O başını aşağı əydi. Hər şey qaranlığa bürünmüşdü. Heç nə görmək olmurdu. Suyun dalğalandığı eşidilirdi, ancaq çay görünmürdü. Ətrafda suyun dondurucu soyuqluğu, yaş daşların qoxusu hiss olunurdu. Aşağıdakı girdabın qorxunc səsi eşidilirdi. Bu görünməz şeyə o diqqətlə baxırdı. Su uğuldayırdı. Birdən o, şlyapasını çıxarıb sürahinin üstünə qoydu. Sonra çaya sarı əyildi,...birbaş zülmətin içinə düşdü. Boğuq bir səs eşidildi. Bu qara kölgənin suya bata-bata çırpındığını ancaq zülmət gördü."

Javerin ölümündən sonra qızlığa götürdüyü Kozettanın məhəbbəti sayəsində yenidən həyata qayıdan Jan Valjan, yepiskop Miriyelinin ona öyrətdiyi Şəfqət qanunları ilə yaşayır. Jan Valjan obrazı Cahandar ağadan fəqli olaraq cəmiyyətin amansızlığına qarşı bir üsyandır, etiraz nümunəsidir. Bu etiraz yalnız milli yox, həm də bəşəri xarakter daşıyır.

Bəs Cahandar ağa ilə Javer obrazının oxşar və fərqli cəhətləri hansılardır? Məlum olduğu kimi hər bir obraz yazıçı ömrünün bir parçasıdır. Obrazla yaradıcı arasında heç bir sərhəd yoxdur. Buna görə də istər Cahandar ağa, istərsə də Javer ayrı-ayrılıqda yazıçı təxəyyülünün məsulu olsalar da, onlar öz milli dəyərlərini saxlamaqla, fərdilikdən çıxaraq bəşəri mahiyyət daşıyırlar. Cahandar ağa daxili dünyasının dəyişməzliyi ilə, Javer isə öz dünyasının dəyişkənliyilə gücsüzlüyünü təsdiq edir. Qəddarlıq, müstədiblik, insan ləyaqətini alçatmaq, özündən aşağılara ikrah hissilə baxmaq, yoxsula, kasıba, dilənçiyə belə aman verməmək bu iki obrazı birləşdirən ümumi cəhətlərdir.

Düzdür, Cahandar ağa nə qədər təbii, real və həyati obraz olsa da, Javer bir o qədər romantik planda təbii boyalarla təsvir olunmuş polis komissarıdır. Bu obrazlar fərdi xüsusiyyətlərə malik olsalar da, onların məqsəd və amalı birdir. Onlar nəinki xalqı, milləti düşünür, günahsız insanlara amansız divan tutur, onların şərəf və ləyaqətini alçaldırlar. Cahandar ağa kazaklar tərəfindən öldürülsə də, bunun əksinə olaraq Javer özü-özünə qəsd edir; Sena çayında özünü həlak edir. Cahandar ağanın cəsədini Kür çayında ulğunluqda tapırlarsa, Javerin cəsədini Sena çayında batmış bir gəminin altından tapıb çıxarırlar.

Bir cəhəti də qeyd etmək lazımdır ki, "Dəli Kür"də sırf müsbət qəhrəman obrazı yoxdur. Çünki bu əsərlərdə bir-birindən fərqli obrazlar qalereyası olsa da, onlar birləşərək ortaq məxrəcə gələ bilmirlər. Tənqidçi-alim T.Salamoğlu yazır: "Dəli Kür"ün qəhrəmanları nəinki ənənəvi müsbət və mənfi qəhrəman bölgüsünə getmir, hətta şərti olaraq "müsbət ideya daşıyıcısı" kimi bir araya gətirə biləcəyimiz qəhrəmanlar - Kipiani, Rus Əhməd, Cahandar ağa, Əşrəf, Şamxal, Çernyayevski, Senıyonov, Həsən ağa, gəmiçi Qoca və s. kimi obrazlar tipoloji cəhətdən eyni qrupda birləşə bilmirlər". Çünki bu obrazların hər biri hardasa, psixologiyanın hansı çalarındasa fərdidirlər. Bu da onunla bağlıdır ki, müəllifin qələmə aldığı bu obrazların hər biri ayrı-ayrılıqda müəyyən dünyagörüşə, həyat tərzinə bağlı insanlardır. Buna görə də bu obrazların fikir və düşüncələri insani keyfiyyətlərə yanaşma bucaqlarının elə daxili qatlarında kəsişmişlər ki, bu kəsişmə onların birgə yaşayışının əsasını yox, ziddiyətini təşkil edir.

Beləliklə, biz İ.Şıxlının "Dəli Kür" romanı ilə ayrı-ayrı əsərlərin oxşar və fərqli cəhətlərini, onların bir-birilə müqayisəli şəkildə bədii təhlilini verməklə bu əsərlərin eyni məc rada birləşərək ənənə və novatorluq təşkil etdiyinin bir daha şahidi olduq. Bu ro manlarda ictimai-siyasi, tarixi hadisələr öz zəngin həyat materialları ilə dövrümüzün reallığını özündə əks etdirməklə yaxın və uzaq keçmişimizdən xəbər verir. Eyni zamanda həyat materialları ilə zəngin olan bu romanları əxlaq və şəxsiyyət konsepsiyasından kənarda təsəvvür etmək mümkün deyildir. Çünki, bu romanlarda gerçəkliyin ən dərin qatları və çalarları öz novatorluğu ilə bu günümüz üçün də səciyyəvidir.

***14.03.2019***



***Vəliyulla NOVRUZ***